# "Bu gün gərək Hər anımız Vətən! - desin!"

## III "Məmməd Araz Poeziya günü"nün Neftçalada düzənlənən növbəti tədbirinin devizi belə idi



**Neftçala rayon mərkəzi kitabxanasının həyətində məktəblilər qonaqları gül-çiçəklə qarşıladılar. Şairin qızı, tanınmış yazarlar onlarla görüşə gəlmişdi. Hədsiz maraq məktəblilərin gözlərindən açıq-aşkar oxunurdu. Sanki ruhən ərş-əlada idilər. Rayonda yaşayan şair Zabil Pərviz isə tədbir zamanı öz çıxışında "Məmməd Araz şeirlərini göyün yeddinci qatında yazan az-az şairlərdəndir" fikrini səsləndirəcəkdi.**



Srağagün,- 4 oktyabrda,- şairin doğum gününə on gün qalmış Neftçala rayon Mərkəzi kitabxanasında III "Məmməd Araz Poeziya günü" və şairin 85-illik yubileyi münasibətilə keçirilən "Azərbaycan-dünyam mənim" adlı ədəbi gecə ənənəvi olaraq unudulmaz ustad sənətkarın lentə alınmış öz ifasında səslənən şeiri ilə başladı.



Foyedə şairin kitablarından, hikmətli söz, aforizm səciyyəli misralarından ibarət sərgi təşkil olunmuşdu.

Bu dəfə təklif yerdən gəlmişdi,- "Məmməd Araz Poeziya günü" nün Neftçala rayonunda da keirilməsi təşəbbüsünü mərkəzi kitabxana irəli sürmüşdü və qonaqları- millət vəkili, yazıçı Aqil Abbası, "Ədalət" qəzetinin Baş redaktoru, əməkdar jurnalist İradə Tuncayı, "Ədəbiyyat qəzeti"nin Baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru Azər Turanı, ADPU-nun elmi işçisi Mehriban Sərdarovanı, "Məmməd Araz Poeziya günü" layihəsinin rəhbəri Qardaşxan Əzizxanlını salamlayan mərkəzləşdirilmiş kitabxana sisteminin direktoru Gülnarə Qasımovanın, "Metodika və biblioqrafiya" şöbəsinin müdiri Bədirə Niftaliyevanın, tədbirin aparıcısı MKS Dördlər kənd kitabxanasının müdiri Mehriban Əbilovanın... bu mənada həyəcanlı olması başa düşülən idi. Tədbirdə rayonun bir çox məktəbi təmsil olunurdu; Muğan liseyi, Surra kənd məktəbi, şəhər 1, 4... saylı orta məktəblər, Bankə qəsəbəsi 1 saylı orta məktəbi.

Çıxış edən məktəblilər- Şahnaz Əskərzadə, Sonaxanım Nağızadə, Çinarə Nağıyeva, Miranə Babayeva, Elvin Gözəlov, Jalə Bayramova, Nərgiz Əliyeva, Əlimirismayıl Hüseynzadə, Fatimə Kərimova, həmçinin Neftçala səhər Bələdiyyəsinin



əməkdaşı Jalə Sərdarzadə Məmməd Arazın məşhur şeirlərindən "Bu da belə bir ömürdü yaşadım", "Ata millət, ana millət, ağlama", "Qaytar məni", "Dünya sənin, dünya mənim, dünya heç kimin", "Göy göl", "Dünya gözəl dünyadı", "Ayağa dur , Azərbaycan", "Azərbaycan-dünyam mənim", "Vəsiyyət" şeirlərini ifa etdilər.

Yaşlı nəsildən AYB üzvləri "Xəzər nəğmələri" ədəbi birliyinin rəhbəri Soltan Abbas, 20 Yanvar əlili İmamverdi Zeynalov, həmçinin Əməkdar müəllim, rayon "Təh-



sil" muzeyinin yaradıcısı Tədbir Mahmudov M.Arazla bağlı xatirələrini söylədilər. Gənc şair Elnur Uğur, dil-ədəbiyyat müəllimi Etibar Əbilov M.Araz poeziyasına heyranlıqla danışdılar.

Aqil Abbas, Azər Turan, İradə Tuncay, Mehriban Sərdarova və Qardaşxan Əzizxanlının çıxışlarının məzmununu isə bütövlükdə unudulmaz şairin bu misraları çox yaxşı ümumiləşdirirdi:

**Bu gün gərək**<br>
**Hər anımız Vətən! - desin!**<br>
**Qılıncımız, qalxanımız**<br>
**Vətən! - desin**<br>
**Ölənlərin əvəzinə**<br>
**Qalanımız Vətən! - desin.**<br>
**Vətən! - desin**<br>
**Qəlbimizin hər duyğusu,**<br>
**hər vurğusu**<br>
**Vətən! - desin.**<br>
**Fərqi yoxdur, harda olaq,**<br>
**Zamanımız, məkanımız**<br>
**Vətən! - desin...**

Tədbirin sonunda məktəblilər Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təşəkkürnamələri ilə təltif olundular.

Sonra qonaqlar Neftçalanın ziyalılıq rəmzi olan İmamverdi Əbilovun yaşamış olduğu evi ziyarət etdilər.

ədalət.-2018.-6 oktyabr.-S.7.